**AZƏRBAYCAN QANUNVERİCİLİK YENİLİKLƏRİ*** **APREL 2016**
**KORPORATİV HÜQUQ**

## HÜQUQİ ŞƏXSLƏRİN MƏLUMATLARINDA DƏYİŞİKLİKLƏRİN QEYDİYYATDAN KEÇİRİLMƏSİ

*Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı və Dövlət Reyestri* haqqında Azərbaycan Respublikasının Qanununun (bundan sonra "**Qeydiyyat və Reyestr Qanunu**") 9.2-ci bəndinə müvafiq olaraq, hüquqi şəxsin təsis sənədlərinə və reyestr məlumatlarında edilmiş dəyişikliklər 40 iş günü ərzində dövlət qeydiyyatına alınmalıdır.

Reyestr məlumatlarına hüquqi şəxsin/qurumun hər bir fiziki şəxs təsisçisinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yeri, habelə qurumun hər bir qanuni təmsilçisinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yeri məlumatları daxil edilir (təsisçi hüquqi şəxsdirsə, onun adı, hüquqi ünvanı və qeydiyyatı haqqında məlumatlar daxil edilir).

Bununla bərabər, direktorun qeydiyyat zamanı və ya sonradan təqdim olunmuş şəxsiyyət vəsiqəsinin (pasport) məlumatları, habelə təsisçi fiziki şəxslərin qeydiyyat zamanı və ya sonradan şəxsiyyət vəsiqəsinin (pasport) məlumatları hüquqi şəxsin nizamnaməsinə və ya dövlət reyestrinə daxil edildiyi halda, bu cür məlumatlar reyestr məlumatları sayılır, və belə məlumatlarda dəyişiklik olduğu halda Qeydiyyat və Reyestr Qanununa müvafiq olaraq, bu dəyişikliklər dövlət qeydiyyatına 40 iş günü ərzində qeydə alınmalıdır.

Əks təqdirdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 405-ci maddəsinin müddəalarına əsasən, hüquqi şəxslərin, habelə xarici dövlətlərin hüquqi şəxslərinin Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinin təsis sənədlərində (əsasən, nizamnamə) edilmiş dəyişikliklərin və bu qurumlara dair qeydə alınmış faktların sonrakı dəyişikliyinin qeydiyyata alınması üçün Qeydiyyat və Reyestr Qanunu ilə müəyyən edilmiş müddətdə (40 iş günü ərzində) və qaydada müvafiq icra hakimiyyəti orqanına müraciət olunmamasına görə vəzifəli şəxslər 1.000 manatdan 2.000 manatadək məbləğdə, hüquqi şəxslər isə 2.500 manatdan 3.000 manatadək məbləğdə cərimə edilir (təsisçi fiziki şəxslərin məlumatlarında dəyişikliklərə dair məlumatın verilməməsinə görə məsuliyyət müvafiq hüquqi şəxs/onun təmsilçiləri üzərinə qoyulur).

2016-cı ilin fevral ayından başlayaraq, yeni tətbiq olunan qaydalara müvafiq olaraq, Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Kommersiya Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı idarələrinə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəxsi məlumatları (şəxsiyyət vəsiqələri və pasportlar) əks etdirən sisteminə daxil olmaq imkanı verilib.

Bildiyimiz kimi, fiziki şəxs təsisçi və təmsilçilərinin şəxsi məlumatlarında dəyişiklik edilmiş və müvafiq qeydiyyat idarələrini vaxtında məlumatlandırmayan dövlət qeydiyyatına alınmış kommersiya qurumlarına/vəzifəli şəxslərə qeydiyyat idarələri tərəfindən hal-hazırda bildirişlər göndərilir və müvafiq cərimələr tətbiq edilir.

Bu halların baş verməməsi üçün aşağıdakı tədbirlər görülə bilər:

(1) direktor və təsisçi fiziki şəxs adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yerində dəyişiklik baş verdiyi halda, 40 iş günü ərzində Kommersiya Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı müvafiq idarəsini məlumatlandırmaq; və

(2) hüquqi şəxsin təsisçiləri fiziki şəxslər olduğu halda, həmin hüquqi şəxsin nizamnaməsinə təsisçi fiziki şəxslərin şəxsiyyət vəsiqələri/pasport məlumatlarını daxil etməmək, yəni, nizamnamədə təsisçi fiziki şəxslər barəsində məlumatları tam adları ilə məhdudlaşdırmaq. Bu halda, nizamnaməyə daxil edilməmiş məlumatlara dəyişiklik edildiyi halda, bu dəyişiklikləri qeydiyyata aldırmaq ehtiyacı qalmayacaqdır.

**İSTƏNİLƏN SUAL VƏ ƏLAVƏ MƏLUMAT ÜÇÜN BİZİMLƏ ƏLAQƏ SAXLAYIN:**

**BM Morrison Partners**
**Tel: (994 12) 497 19 14; 497 19 15**
**Faks: (994 12) 497 19 13**
**E-mail: info@bmlawaz.com**

©2016 BM Morrison Partners. Bütün hüquqlar qorunur.

* Nəşrimizdə olan məlumat hüquqi və ya digər peşəkar məsləhət təşkil etmir.